**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

4 oktyabr 2025-ci il | №37 (9143) | www.muallim.edu.az | muallim@media.edu.az


**5 OKTYABR**

**BEYNƏLXALQ MÜƏLLİMLƏR GÜNÜDÜR**

# Əminəm ki, universitetin gələcəyi çox parlaq olacaq



**Prezident İlham ƏLİYEV:**

“Mən Prezident vəzifəsinə seçiləndən sonra demək olar ki, dərhal göstəriş vermişdim ki, Azərbaycan vəsaiti hesabına dünyanın aparıcı ali məktəblərinə Azərbaycan gəncləri ezam edilsin, onların bütün xərcləri dövlət tərəfindən ödənilsin və onlar yaxşı oxuyub Vətənə yaxşı mütəxəssislər kimi qayıtsınlar. Bu günə qədər dövlət xətti ilə dünyanın aparıcı ali məktəblərində təhsil alan tələbələrin sayı minlərlə ölçülür. Ondan sonrakı mərhələdə qərara gəldik ki, eyni zamanda, Azərbaycanın daxilində təhsil sisteminin inkişafı ilə bağlı beynəlxalq əməkdaşlıq məsələlərinə də diqqətlə yanaşaq. Artıq Azərbaycanda bir neçə xarici tərəfdaşlarla birgə universitet fəaliyyət göstərir və növbəti universitet İtaliya-Azərbaycan Universitetidir”.

## Bakıda İtaliya-Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılışı olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ölkəmizdə rəsmi səfərdə olan İtaliya Respublikasının Prezidenti Sercio Mattarella oktyabrın 1-də Bakıda İtaliya-Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, ADA Universitetinin rektoru Hafiz Paşayev Azərbaycan Prezidenti İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və İtaliya Prezidenti Sercio Mattarellaya yeni tikilmiş tədris korpusları və onların ətrafında yaradılmış park barədə məlumat verdi.

Sonra tədris korpusunda təşkil edilən Azərbaycan və İtaliya kənd təsərrüfatı məhsullarından ibarət sərgi ilə tanışlıq oldu.

Qeyd edək ki, İtaliya-Azərbaycan Universitetinin yaradılması təşəbbüsü 2020-ci ildə Prezident İlham Əliyev tərəfindən İtaliyaya dövlət səfəri zamanı irəli sürülüb. Layihəni həyata keçirmək üçün ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi - Luiss Guido Carli Universiteti, Sapienza Universiteti, Turin Politexnik Universiteti, Bolonya Universiteti və Milan Politexnik Universiteti arasında 2022-ci ildə akademik əməkdaşlıq sazişləri imzalanıb. Bu əməkdaşlıq İtaliyada kiçik və orta sahibkarlığın, yaradıcı sahələrin, sənətkarlığın və texnoloji inkişafın dəstəklənməsi təcrübəsini təhsil və tədqiqat vasitəsilə Azərbaycana gətirir, iqtisadiyyatımızın strateji sahələri, xüsusilə də mühəndislik, kənd təsərrüfatı və qida sənayesi, memarlıq və dizayn üçün gələcək kadrları yetişdirmək məsələsində mühüm rol oynayır.

İtaliya-Azərbaycan Universiteti binalarının təməli 2022-ci ildə hər iki ölkənin xarici işlər nazirlərinin iştirakı ilə Bakıda qoyulub. Universitetə tələbə qəbulu 2023-cü ildən magistr səviyyəsində həyata keçirilir. Hazırda burada tədris olunan 8 bakalavr və 2 magistr proqramında 538 tələbə bakalavr, 102-si isə magistr səviyyəsində təhsil alır. İxtisaslardan 3-ü ikili diplom proqramıdır. Tədris proqramları elektrik və elektronika mühəndisliyi, memarlıq, interyer və kommunikasiya dizaynı, şəhərsalma, kənd təsərrüfatı və qida texnologiyaları, heyvandarlıq və müxtəlif menecment ixtisaslarını əhatə edir. Bakalavr və magistr proqramlarından əlavə, peşəkarlar üçün mütəmadi ixtisasartırma və sertifikat proqramları da həyata keçirilir.

**Ardı səh.2**

# “Mən öz müəllimlərimi həmişə xatırlayıram”



*Heydər ƏLİYEV, Ümummilli Lider*

**“...Mən öz müəllimlərimi həmişə xatırlayıram. Bilirsiniz ki, mən böyük həyat yolu keçmişəm, yaşım da az deyildir. Çox şeylər, çox insanlar görmüşəm. Yadda qalanları da, qalmayanları da var... Amma sizə demək istəyirəm ki, ən yadda qalanlar, mənim üçün əziz adamlar Naxçıvandakı müəllimlərimdir. Onların adlarını indiyə qədər xatirimdə saxlayıram. Dil-ədəbiyyat müəllimim - Lətif Hüseynzadə... çox gözəl ədəbiyyat dərsi deyirdi...”.**



## Bu sayımızda




**Şəhid anası müəllim** — Bax səh. 5



**Mənim müəllim anam** — Bax səh. 5



**Bankı deyil, məktəbi seçdi** — Bax səh. 5

# Əminəm ki, universitetin gələcəyi çox parlaq olacaq





Əvvəli səh.1

Tədris korpuslarında sinif otaqları ilə yanaşı, müasir texnologiyalara əsaslanan, İtaliyanın Bolonya Universiteti və Milan Politexnik Universiteti ilə birgə qurulmuş 6 tədqiqat və 7 tədris məqsədli laboratoriya da fəaliyyət göstərəcək. Burada memarlığa aid materiallardan ibarət kitabxana, şəhərsalma, landşaft və foto-video studiyaları, müxtəlif dizayn emalatxanaları yerləşir. Yeni binalarda qurulmuş tədris emalatxanaları isə dərslərin praktiki tədrisi üçün bir məkandır. Burada müxtəlif növ materiallarla işləmək üçün texnoloji və rəqəmsal imkanlar yaradılıb. Tədris emalatxanası tələbələr və tədqiqatçıların bir yerdə işlədiyi məkandır. Onların birgə əməyinin nəticəsi isə xüsusi Dizayn və yaradıcılıq mərkəzi vasitəsilə sənaye və biznes strukturlarına çatdırılacaq. Bir sözlə, bura tədris və tədqiqatın real iş dünyası ilə birləşdiyi mərkəzdir.

Tədris korpusunda yerləşən "bazar meydanı" isə Azərbaycanın tarixi "İpək Yolu"nun bir hissəsi olduğunu əks etdirir. Universitetin tələbələri və müəllimləri ildə bir dəfə burada bir araya gələrək öz layihələri ilə yarışacaq və onları biznes mühitinə təqdim edəcəklər. Bu sərgilər yerli və beynəlxalq səviyyədə universitet-sənaye-dövlət arasında üçtərəfli əməkdaşlığa xidmət göstərəcək.

Bu layihənin icrası ölkələrimiz arasında humanitar sahədə əməkdaşlığın yüksək səviyyəsinin göstəricisi olmaqla səmimi münasibətlərimizdən xəbər verir. Bu, həmçinin İtaliya təcrübəsindən istifadə etməklə Azərbaycan təhsilinin inkişafına töhfədir.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və İtaliya Prezidenti Sercio Mattarella tədris binalarında yaradılan şəraitlə tanış olduqdan sonra ölkəmizdə səfərdə olan İtaliya universitetlərinin rəhbərləri, İtaliya-Azərbaycan Universitetinin professorları və tələbələri ilə görüşüblər.

ADA Universitetinin rektoru **Hafiz Paşayev** görüşdə çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident İlham Əliyev.

Möhtərəm Prezident Sercio Mattarella.

Möhtərəm Mehriban xanım, ölkəmizin Birinci vitse-prezidenti.

Mən sizi səmimi-qəlbdən çox həyəcanla və iftixarla bu yeni binada salamlayıram. Həmçinin mən istəyirəm Azərbaycanın və İtaliyanın rəsmilərini, bizim professor-müəllim heyətini, tələbələri salamlayım və alqışlayım. Sizin hamınıza "Xoş gəlmisiniz!" deyirəm.

Beş il bundan əvvəl İtaliyaya rəsmi səfəri zamanı Prezident İlham Əliyev təşəbbüslə çıxış etdi və İtaliya-Azərbaycan Universitetinin yaradılması haqqında təklif irəli sürdü. O zamandan işlər başladı və 2022-ci ildə artıq Roma şəhərində biz İtaliyanın beş universiteti ilə birlikdə müqavilələrə qol çəkdik və beləliklə, niyyətlər konkret işlərə keçdi. Ondan sonra, əlbəttə, cənab Prezident bizə böyük bir hədiyyə kimi yeni İtaliya-Azərbaycan Universitetinin Bakıda kampusunun yaradılması haqqında Sərəncam verdi. Bu gün görürsünüz, biz indi həmin universitetdəyik. Bu, gözəl universitetdir, artıq iki bina bu universitetə məxsusdur. Biri Kənd təsərrüfatı və qida elmləri, digəri isə Dizayn və arxitektura fakültəsi. Əlbəttə, bu günə qədər nailiyyətlərimiz təkcə bunlar deyil, biz təhsilin təşkili sahəsində də işlər görmüşük və deyə bilərəm ki, bu gün bizim 640 tələbəmiz var. Onlardan 112-si magistr, qalanı bakalavr tələbələridir. Hətta deyə bilərəm ki, bizim ilk qəbulumuz 2023-cü ildə olub və artıq onun məzunları bu il Luiss Universitetinin magistr proqramını başa vurublar.

Əlbəttə, sizin vaxtınızı çox almaq istəmirəm, amma mən bir şeyi demək istəyirəm. Bu universitetin yaranmasında həm İtaliya tərəfi, həm də İtaliyanın beş universiteti - Luiss, Milan Politexnik, Turin Politexnik, Sapienza və Bolonya mühüm rol oynayıb. O əsas bina Bolonya Universitetinə məxsusdur ki, bu da kənd təsərrüfatına aiddir. Deməyim odur ki, bu işlər artıq görülüb və bu işlərdə çox şirkətlər iştirak edib. Onların bu işə verdiyi töhfə çox dəyərlidir. Mən indi hamısını sadalamaq istəmirəm, amma deməliyəm ki, bu iş doğrudan da təhsilə həvəsin çox böyük olduğunu göstərir. Biz bu işdə əməyi olan hər kəsdən, hər bir şirkətdən çox böyük kömək görmüşük. Onu da deyim ki, bu iş çox həvəslə görülüb.

Cənab Prezident, bu imkanı bizə yaratdığınıza görə Sizə çox təşəkkür edirik. Bu, doğrudan da həyəcandoğuran bir iş idi və təbii ki, bunun davamı olacaq. Amma elə bilirəm bu günə qədər gördüyümüz işlər müəyyən təsəvvür yaradıb ki, bizim niyyətlərimiz nədir, hara gedirik. Ümumiyyətlə, biz ölkənin təhsilinə daha artıq töhfə vermək fikrindəyik. Mən bilirəm ki, hər iki ölkədə təhsillə bağlı çox işlər görülür. Hətta tərəfdaşlarımız bu işdə bizə kömək edərək öz təcrübələrini həvəslə bölüşürlər. Bu mənada mən xüsusilə ona diqqət yetirmək istəyirəm ki, hazırda 26 doktorant bu iki universitetdə - Bolonya Universitetində, sonra Polimidə təhsil alır. Həmçinin Turində də bizim mühəndislik üzrə doktorantlarımız var.

Mən hər iki Prezidentin təhsilə verdiyi diqqəti və dəstəyi xüsusi qeyd etmək istəyirəm. Həm Prezident İlham Əliyev, həm də Prezident Sercio Mattarella təsadüfi deyil ki, bu gün bizimlə bir yerdə bu binaların açılışını edirlər. Ona görə universitetimizin, tələbələrimizin və müəllimlərimizin adından hər iki Prezidentə çox böyük təşəkkür edirəm.

Çox sağ olun.

***

Sonra Azərbaycan Respublikasının Prezidenti çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar, tələbələr, müəllimlər.

Xanımlar və cənablar.

Bu gün İtaliya-Azərbaycan əlaqələrinin tarixində çox əlamətdar bir gündür, biz İtaliya-Azərbaycan Universitetinin binalarının açılışını qeyd edirik. Mən keçən il Romada Prezident Mattarella ilə görüşərkən ona bu haqda məlumat vermişdim və onu Azərbaycana rəsmi səfərə dəvət etmişdim. Şadam ki, cənab Prezident mənim dəvətimi qəbul edib Azərbaycana ikinci dəfə rəsmi səfərə gəlib. Biz səfər çərçivəsində bu gözəl təhsil ocağının açılışını birlikdə qeyd edirik. Əslində, Prezident Mattarellanın rəsmi səfər proqramına bu tədbirin salınması onu göstərir ki, həm İtaliya, həm də Azərbaycan bu sahədəki əməkdaşlığa çox böyük əhəmiyyət verir. Əminəm ki, universitetin gələcəyi çox parlaq olacaq. Bu, nəinki Azərbaycanda, dünya miqyasında öz layiqli yerini tutacaq, universitetin məzunları isə Azərbaycanın inkişafına öz töhfələrini verəcəklər. Əminəm ki, burada oxuyan və oxuyacaq tələbələr gələcəkdə Azərbaycanın inkişafına çox böyük dəstək verəcəklər. Çünki sirr deyil ki, hər bir ölkənin inkişafı onun elmi və təhsil potensialından qaynaqlanır. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, bu ölkələri inkişaf etmiş ölkələr edən məhz biliklərdir, təhsildir, texnologiyalardır. Bugünkü dünyada texnoloji inkişaf hər bir ölkənin uğurunu müəyyən edir. Təbii resurslarla zəngin olan ölkələr kimi Azərbaycan, ilk növbədə, təbii resurslardan gələn gəlirləri insan kapitalına yönəltməyə çalışmışdır. Çünki biz gələcəyə baxmalıyıq. Yenə də deyirəm, neft, qaz, təbii resurslar hələ o demək deyil ki, bu ölkələr uzunmüddətli dayanıqlı inkişafa malik olacaqlar. Bu inkişaf qısamüddətli ola bilər. Uzunmüddətli dayanıqlı inkişaf məhz biliyin, texnologiyanın, təhsilin səviyyəsinin üzərində qurulur. Ona görə biz Azərbaycanda bu sahəyə böyük diqqət yetirərək artıq uzun illər ərzində bir çox önəmli proqramlar icra etmişik.

Mən Prezident vəzifəsinə seçiləndən sonra demək olar ki, dərhal göstəriş vermişdim ki, Azərbaycan vəsaiti hesabına dünyanın aparıcı ali məktəblərinə Azərbaycan gəncləri ezam edilsin, onların bütün xərcləri dövlət tərəfindən ödənilsin və onlar yaxşı oxuyub Vətənə yaxşı mütəxəssislər kimi qayıtsınlar. Bu günə qədər dövlət xətti ilə dünyanın aparıcı ali məktəblərində təhsil alan tələbələrin sayı minlərlə ölçülür. Ondan sonrakı mərhələdə qərara gəldik ki, eyni zamanda, Azərbaycanın daxilində təhsil sisteminin inkişafı ilə bağlı beynəlxalq əməkdaşlıq məsələlərinə də diqqətlə yanaşaq. Artıq Azərbaycanda bir neçə xarici tərəfdaşlarla birgə universitet fəaliyyət göstərir və növbəti universitet İtaliya-Azərbaycan Universitetidir. Bu universitetin özəlliyi bundan ibarətdir ki, - burada rektor Hafiz Paşayev bunu qeyd etdi, - bu universitet İtaliyanın beş aparıcı universiteti və ADA Universiteti ilə birlikdə qurulmuşdur. Əlbəttə, İtaliya-Azərbaycan strateji tərəfdaşlıq əlaqələrini nəzərə alaraq, biz əminik və ümid edirik ki, bu, Azərbaycanın aparıcı təhsil ocaqlarından birinə çevriləcəkdir.

İtaliya Azərbaycanla artıq uzun illər strateji tərəfdaşlıq əsasında münasibətlər qurmuşdur. Biz, sözün əsl mənasında, strateji tərəfdaşıq. Çünki bizim əməkdaşlığımız strateji xarakter daşıyır, qısamüddətli deyil, uzunmüddətlidir. Eyni zamanda, bizim əməkdaşlıq çərçivələrinə ildən-ilə yeni istiqamətlər əlavə olunur. Energetikadan başlamış sənaye istehsalına qədər uzanan və bu gün təhsil sahəsini əhatə edən əməkdaşlıq, sözün əsl mənasında, strateji xarakter daşıyır.

Dünən Prezident Mattarellanın rəsmi səfəri zamanı həm rəsmi açıqlamalarda, həm apardığımız danışıqlarda biz bunu qeyd edirdik ki, İtaliya-Azərbaycan əməkdaşlığı, məsələn, energetika sahəsində böyük bir inkişafa yol açmışdır. Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP layihəsi böyük dərəcədə Prezident Mattarellanın şəxsi dəstəyi nəticəsində mümkün olmuşdur. Əgər o vaxt bu həll olunmasaydı, bu gün biz Avropa məkanına bu qədər təbii resurslar ixrac edə bilməzdik. Biz də ondan əziyyət çəkərdik, Avropa məkanı da. Bu gün Azərbaycan qazı Avropa İttifaqına səkkiz üzv ölkənin enerji təhlükəsizliyini dəstəkləyir və bu coğrafiya genişlənir və burada İtaliya-Azərbaycan əməkdaşlığı həlledici rol oynamışdır.

Qaz təchizatına görə Azərbaycan İtaliya bazarında ikinci yerdədir, neft təchizatına görə birinci yerdədir. Əminəm ki, təhsil sahəsində də İtaliya bizim üçün bir nömrəli tərəfdaş olacaq. Hər halda burada gördüklərimiz və artıq fəaliyyətə başlamış universitetin uğurları bunu deməyə əsas verir. Artıq yüzlərlə tələbə oxuyur. Biz bu gün burada rəhbər heyətlə də tanış olduq. Burada beynəlmiləl müəllim heyəti çalışır, həm İtaliyadan, həm Azərbaycandan. Xarici tələbələr də var və bu, çox gözəl bir ovqat yaradır. Əminəm ki, burada oxuyan və məzun olacaq tələbələr gələcəkdə İtaliya-Azərbaycan dostluğunun elçiləri olacaqlar. Hər halda burada oxuyan Azərbaycan tələbələrinin gələcəyi İtaliya ilə bağlı olacaq. Onlar İtaliyanı, onun mədəniyyətini, onun inkişafını, onun uğurlarını daha yaxından tanıyacaqlar. Burada bir çox məqsədlər təmin ediləcək. İlk növbədə, Azərbaycan iqtisadiyyatı üçün gələcəkdə güclü kadr potensialı yaradılacaq. Bizim təhsil sahəsinin təkmilləşməsi məsələləri öz həllini tapacaq. Biz ən müasir və mütərəqqi təhsil sisteminə qoşulacağıq və eyni zamanda, Avropa İttifaqının aparıcı ölkələrindən biri olan İtaliya ilə dostluq əlaqələrimiz daha da güclənəcək. Bütün bu amilləri nəzərə alaraq bir daha görürük ki, vaxtında atılmış və düşünülmüş addımlar gözəl nəticələrə gətirib çıxarır.

Burada qeyd olundu, bu universitetin yaradılması təşəbbüsü cəmi beş il bundan əvvəl irəli sürülmüşdür. Romada, Azərbaycan səfirliyində, səfirliyin binasında yerləşən Mədəniyyət Mərkəzində sənədlər mübadiləsi olmuşdur. Ondan sonra mənim tərəfimdən Sərəncam imzalanmışdır. Daha sonra Azərbaycanın dövlət büdcəsindən bu binaların, bütün infrastrukturun yaradılmasına vəsait ayrılmışdır və bu gün 2025-ci ildə biz bu gözəl binaların açılışını qeyd edirik.

Bu, doğrudan da gözəl hadisədir. Bu təhsil ocağı İtaliya-Azərbaycan dostluq ocağı olacaq. Hər birinizi bu münasibətlə təbrik edirəm. Prezidentə bu tədbirdə bizimlə bərabər olduğu üçün bir daha təşəkkürümü bildirirəm. Sağ olun.

***

Daha sonra İtaliya Respublikasının Prezidenti çıxış etdi.

## Prezident Sercio Mattarellanın çıxışı

- Cənab Prezident.

Hörmətli xanım Birinci vitse-prezident.

ADA Universitetinə və rektora söylədiyi sözlərə görə dərin təşəkkürümü bildirirəm. Onunla birgə buraya gəlmiş Luiss Universitetinin, Milan və Turin universitetlərinin, eləcə də Bolonya və Roma universitetlərinin rektorlarını, prorektorlarını salamlayıram. Cənab Prezident, mən özüm də illər öncə Roma Universitetini bitirmişəm.

İtaliya-Azərbaycan Universitetinin dosentlərini, eləcə də indicə tanış olduğumuz bu cür möhtəşəm şəhərcikdə təhsil alan və alacaq tələbə qızları və oğlanları xüsusi səmimiyyətlə alqışlayıram. Şəhərcik böyük təəssürat bağışladı, onun binasının funksionallığını və gözəlliyini yüksək dəyərləndirirəm. Mən şəxsən bu təşəbbüsdən olduqca məmnunam. Onun Azərbaycanla birgə reallaşdırılmasından İtaliya fərəh hissi duyur. Bu universitet nəinki geniş imkanları, resursları, tədqiqat və tədrisi, dosentləri, təhsil alan gənc azərbaycanlı və italyan tələbələri bir araya gətirir, o cümlədən Azərbaycan ilə İtaliya arasında yüksələn xətlə artan, intensiv və geniş dostluğu əks etdirir.

Bu təşəbbüsün həm rəmzi, nümunəvi mahiyyəti var, həm də o, əməkdaşlığımızın tacıdır və Prezident Əliyevin xatırlatdığı kimi, özünü müxtəlif formalarda və sektorlarda, yəni enerjidən tutmuş iqtisadiyyat və sənaye sahələrində büruzə verir. Həm də bu məkan ölkələrimizi, onun vətəndaşlarını sıx bağlayan mədəniyyəti, elmi tədqiqatları, təhsili təcəssüm etdirir.

Azərbaycana yenidən gəlmək məqsədilə məni nəzakətlə dəvət etdiyinə görə Prezident Əliyevə dərin təşəkkürümü bildirirəm. Bu cür möhtəşəm tələbə şəhərciyini açmaq münasibətilə mənə etdiyi dəvətdən şərəf hissi duyuram. Həqiqətən olduqca minnətdaram.

Bütün bunları diqqətini öz vətəndaşlarının rifahına yönəldən, onların həyatına qayğı ilə yanaşan, gələcəyi haqqında düşünən ölkələrimiz arasında münasibətləri nümayiş etdirmək fürsəti kimi görürəm. Bakı və Roma nəinki coğrafi baxımdan təmaslar tarixini yazıblar, hətta ticarət baxımından kəsişən yollar vasitəsilə mallar və məhsulların mübadiləsi salnaməsini yazıblar, o cümlədən öz bilikləri, perspektivləri, dostluq və əməkdaşlıq planları ilə də bölüşüblər.

Bunların İtaliya-Azərbaycan Universiteti timsalında bu cür səmərəli, konkret formada və yüksək keyfiyyətlə yenilənməsi, həmçinin bütün beynəlxalq ictimaiyyətə bir ismarışdır. Bu əməkdaşlıq bacarıqları, istedadları, resursları və perspektivləri tamamlayır. Cənab Prezidentlə birlikdə universitetin bu cür möhtəşəm binasını görməkdən çox məmnunam. Bu təhsil ocağı dosent və tələbələrə nəinki tədqiqatlar aparmaq, işləmək, öyrənmək, bilikləri fəal şəkildə artırmaq imkanını verəcək, eləcə də bu ərazidə universitet həyatını duymaq fürsətini yaradacaq. İnkişaf perspektivləri haqqında düşünərkən belə inkişaf meyillərinin Azərbaycanın bütün ərazilərində geniş vüsət almasını arzulayıram. Beynəlxalq əhəmiyyətli təşəbbüslərin burada çox olmasını istərdim. Bu cür birgə perspektivlər İtaliya-Azərbaycan Universitetimizin rolunu daha da artıracaq. Universitetin əks etdirdiyi və ifadə etdiyi mədəniyyət biliklərin daşıyıcısı kimi ismarışları daha səmərəli edəcək.

Bu münasibətlə burada təhsil alan və alacaq tələbə qızlara, oğlanlara ən böyük təbriklərimi çatdırıram. Onlar nəinki öz ölkəsinin təhsil ocağında təhsil alacaq, eləcə də bizim ölkənin digər təhsil ocaqlarındakı tələbələrlə, dosentlərlə və tədqiqatçılarla virtual deyil, real və səmərəli şəkildə əlaqə saxlamaq imkanını qazanacaqlar. Həmçinin bizim tələbələr, dosentlər və tədqiqatçılar azərbaycanlı həmkarları ilə təmas quracaqlar. Biliklər bu cür dərinləşir, imkanların miqyası artır. Bu halda həmin təcrübə və təşəbbüs inanılmaz dərəcədə dəyərli alətə çevrilir.

Bildirmək istərdim ki, Prezident Əliyevlə iştirakçı universitetlərin gördüyü iş, o cümlədən böyük əhəmiyyətli nəticələr vermiş həmin qeyri-adi təşəbbüs haqqında artıq danışdıq. Bütün bunlar həmin təhsil ocağının ərsəyə gəlməsi ilə bağlı təşəbbüsün və məramın düzgünlüyünü göstərir.

Gördüyünüz işlərə görə sizə sağ ol deyirik. İtaliya bu təşəbbüsdə Azərbaycanla birgə iştirak etməkdən fərəhlənir. Cənab Prezident, həqiqətən çox məmnunam ki, biz beynəlxalq səviyyədə bu cür əhəmiyyətli nümunə göstəririk, yəni, əməkdaşlığın dərinləşməsi və inkişafı, istedadlı gənclərimizin təhsili təmin edilir. Ağır münaqişə və toqquşmalarla səciyyələnən hazırkı beynəlxalq vəziyyət fonunda biz məmnuniyyətlə əməkdaşlıq edirik, nəinki iqtisadiyyat, sənaye sahələrində, o cümlədən mədəniyyət, gənclərin təhsili, onların formalaşdırılması sahəsində çalışırıq. Bəşəriyyət isə hər zaman bu yolda olmalıdır. Bəşəriyyəti irəliyə aparan yalnız gənclər olacaq. Qlobal səviyyədə çox işlər görmüşük. Mədəniyyət, təhsil və tədqiqatların dərinləşməsi olmadan bu çağırışlar qarşısında dayanmaq mümkün olmayacaq. Bu amal İtaliya-Azərbaycan Universiteti tərəfindən dəyərləndirilir və onun üçün əməkdaşlıq aparılır.

Gördüyünüz işlərə görə təşəkkür edirəm. Rektorları, dosentləri və tələbələri təbrik edirəm!

# Güclü STEAM təhsili və düzgün dizayn edilmiş tədris ölkənin texnoloji inkişafının və innovasiya ekosisteminin təməlini təşkil edir

## "INMerge" İnnovasiya Sammiti keçirilib







**Emin ƏMRULLAYEV:**

"Biz istəyirik ki, gənclər universiteti yalnız diploma deyil, həm də öz müəssisələrini qurmağa imkan verən bilik, bacarıq, şəbəkə və inamla bitirsinlər.

Yalnız yumşaq bacarıqlara və "asan hissəyə" fokuslanmaqla nəticə əldə etmək mümkün deyil, çünki innovasiyanın əsası güclü elmi baza üzərində qurulur.

Məhz güclü STEAM istiqamətində təhsil və tədrisin düzgün dizaynı ölkənin texnoloji inkişafının və innovasiya ekosisteminin əsasını təşkil edir.

Şagirdlərin təxminən üçdə biri - 4-cü və ya 10-cu siniflərdə - əsas və ya funksional savadlılıq səviyyəsinə belə çatmır. Bu, ciddi narahatlıq doğuran məsələdir.

Əsas məsələ yalnız bilik əldə etmək deyil, həm də həmin biliklərin ölkənin milli inkişafına çevrilməsi prosesidir.

Təhsil sahəsində innovasiya yalnız məktəblərə deyil, həm də geniş ictimaiyyətə təsir etməlidir.

Ölkədə innovasiya mühiti yalnız texnologiya və proqramlar ilə qurulmur, eyni zamanda gələcək nəsillərin yetişdirilməsi və cəmiyyətin ümumi inkişafına töhfə verəcək mədəniyyətin formalaşdırılması ilə bağlıdır".









Bakıda "PASHA Holding" MMC-nin təşkilatçılığı ilə ikigünlük "INMerge" İnnovasiya Sammiti baş tutub. Sammit çərçivəsində innovasiya, investisiya və əməkdaşlıq mövzuları müzakirə olunub. Sammit 5 000-dən çox iştirakçı, 150 spiker, 100 startap və 80-dən çox vençur fondunu bir araya toplayaraq əməkdaşlıq və inkişaf üçün geniş imkanlar yaradıb. Builki proqram fintex və məsuliyyətli bankçılıqdan başlayaraq data və süni intellekt, "Sənaye 4.0", telekommunikasiya, marketinq, e-ticarət və investisiya sahələrini əhatə edən səkkiz istiqamət üzrə təşkil olunub.

Sammitin ilk günündə "Pixar" şirkətinin həmtəsisçisi Ed Katmul, "OpenAI" şirkətinin bazara çıxış üzrə keçmiş rəhbəri Zak Kass və Harvard Universitetinin professoru Tarun Xanna biznes və texnologiyanın gələcəyini formalaşdıran ideyalarını bölüşüblər.

Açılış mərasimində iqtisadiyyat naziri Mikayıl Cabbarov çıxış edərək texnologiya və kreativliyin yeni imkanlar yaratdığını, insan kapitalının bacarıq və biliklərinin artırılmasının vacibliyini deyib. Nazir bildirib ki, ölkəmizdə bu istiqamətdə mühüm tədbirlər görülür və sammitin innovativ ideyaları real imkanlarla birləşdirən unikal platformaya çevrildiyini vurğulayıb.

"PASHA Holding"in baş icraçı direktoru Cəlal Qasımov "INMerge"i Mərkəzi Avrasiya regionunun aparıcı innovasiya forumu adlandıraraq son beş ildə kiçik bir korporativ tədbirdən beynəlxalq əhəmiyyətli platformaya çevrildiyini qeyd edib. Sammit yalnız ilhamlandırmaqla kifayətlənmir, həm də təhsil və bilik mübadiləsi baxımından mühüm əhəmiyyət daşıyır.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev çıxışı zamanı qeyd edib ki, IT alətlərinin ixracı sahəsində böyük imkanlarımız var. Bu imkanların reallaşdırılmasının əsas şərtlərindən biri də istedadlı mütəxəssislərin yetişdirilməsidir və bu istiqamətdə birgə olaraq ardıcıl iş aparılır.

Birinci günün son paneli biliyin milli inkişafa çevrilməsinə həsr olunub. Paneldə elm və təhsil naziri Emin Əmrullayev, "PASHA Holding"in baş direktorunun müavini Dəyanət Sədullayev və Harvard Biznes Məktəbinin professoru Tarun Xanna təhsilin sahibkarlığı təşviq etməsi, innovasiyaları hərəkətə gətirməsi və davamlı milli inkişafa verdiyi töhfələri müzakirə ediblər.

Elm və təhsil naziri Emin Əmrullayevin sözlərinə görə, əsas məsələ yalnız yeni ixtisas yaratmaqla bitmir. Bu istiqamətdə dərin düşünülmüş yanaşmalar, müasir pedaqoji metodlar və praktiki tətbiq imkanları tələb olunur. Nazir əlavə edib ki, texnologiya və innovasiya sahəsində inkişaf üçün təkcə yumşaq bacarıqlar deyil, güclü fundamental bilik bazası və STEAM təhsili vacibdir. Cəmiyyətin texnoloji inkişafında mühəndislər, riyaziyyatçılar və hüquqşünaslar kimi fundamental peşə sahibləri həlledici rol oynayırlar.

Nazir qeyd edib ki, innovasiya və sahibkarlıq yalnız proqramlarla məhdudlaşmamalıdır, bunun mədəniyyət və təhsil sistemi ilə dərin bağlılığı vardır. İlk növbədə, yanlış yanaşmalardan uzaq durmalı, düzgün metodları müəyyən etməliyik. "Təhsil sahəsində innovasiya yalnız məktəblərə deyil, həm də geniş ictimaiyyətə təsir etməlidir", - deyə nazir vurğulayıb.

Sonda Emin Əmrullayev qeyd edib ki, ölkədə innovasiya mühiti yalnız texnologiya və proqramlar ilə qurulmur. Bu, eyni zamanda gələcək nəsillərin yetişdirilməsi və cəmiyyətin ümumi inkişafına töhfə verəcək mədəniyyətin formalaşdırılması ilə bağlıdır.

Tədbirin ikinci günü də panel sessiyalarla davam edib.

**Yetər KƏRİMLİ**

# 2027–2030-cu illərdə elm və ali təhsilin strateji hədəfləri müzakirə olunub

Oktyabrın 3-də Bakı Dövlət Universitetində "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf strategiyası" layihəsinin elm və ali təhsil istiqamətlərinə həsr olunmuş iclas keçirilib.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, elm və təhsil naziri Emin Əmrullayev, Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə, Elm və Təhsil Nazirliyinin müvafiq struktur bölmələrinin rəhbərləri və ali təhsil müəssisələrinin rektorları iştirak ediblər.

İclasda "Elm və ali təhsil ekosisteminin gücləndirilməsi" mövzusunda təqdimat edilib. Təqdimatda 2022-2025-ci illərdə elm və ali təhsil sahəsində əldə olunan nəticələr və 2030-cu ilə qədər nəzərdə tutulan fəaliyyət istiqamətləri barədə məlumat verilib.



Müzakirələr zamanı ali təhsilin əhatəliliyinin və əlçatanlığının artırılması, məzmun və keyfiyyət göstəricilərinin müasirləşdirilməsi, beynəlxalq rəqabətlilik və mobilliyin gücləndirilməsi, dövlət-özəl tərəfdaşlığı çərçivəsində elmin və ali təhsilin inkişaf etdirilməsi, elmi potensialın gücləndirilməsi və maliyyə dayanıqlılığının təmin edilməsi kimi prioritetlər diqqətə çatdırılıb.

Bununla yanaşı, ali təhsil müəssisələrinin strateji inkişaf planlarının ölkənin sosial-iqtisadi hədəflərinə uyğunlaşdırılması, universitetlərin beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi və elmi tədqiqatların praktiki nəticəliliyinin artırılması ilə bağlı təkliflər irəli sürülüb.

İştirakçılar qarşıdakı dövr üçün prioritetlərin müəyyənləşdirilməsi, müasir tələblərə cavab verən ali təhsil ekosisteminin formalaşdırılması və elmin cəmiyyətin inkişafındakı rolunun daha da gücləndirilməsi istiqamətində fikir mübadiləsi apardılar.





# Elm və təhsil sahəsində əməkdaşlıq genişləndirilir







## Elm və təhsil naziri Çinin təhsil nazirinin müavini, Belarusun Azərbaycandakı səfiri və "Quacquarelli Symonds" qlobal reytinq agentliyinin regional direktoru ilə görüşüb

Sentyabrın 29-da elm və təhsil naziri Emin Əmrullayev ölkəmizdə səfərdə olan Çin Xalq Respublikasının təhsil nazirinin müavini Jiangfeng Du və sentyabrın 30-da Belarus Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dmitriy Pineviç ilə görüşüb.

Görüş çərçivəsində iki ölkə arasında elm və təhsil sahəsində cari əməkdaşlıq və inkişaf perspektivləri müzakirə edilib.

Oktyabrın 2-də elm və təhsil naziri Emin Əmrullayev "Quacquarelli Symonds" (QS) qlobal reytinq agentliyinin regional direktoru Sergey Xristolyubov ilə görüşüb.

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin əməkdaşlarının da iştirak etdiyi görüş zamanı QS qlobal reytinqində ölkəmiz üzrə ümumi nəticələr, həmçinin Azərbaycan universitetlərinin bir sıra istiqamətlər üzrə göstəricilərinin təhlili təqdim olunub, o cümlədən gələcək inkişaf perspektivləri müzakirə olunub.

# Elm və təhsil naziri Gədəbəy və Salyanda vətəndaşları qəbul edəcək

Elm və təhsil naziri Emin Əmrullayev 23 oktyabr tarixində Gədəbəy şəhərində vətəndaşları qəbul edəcək.

Qəbulda Gədəbəy, Şəmkir, Tovuz, Ağstafa və Qazax sakinlərinin iştirakı nəzərdə tutulur.

Qeyd edək ki, qəbulda yalnız əvvəlcədən müvafiq qaydada qeydiyyatdan keçmiş şəxslər iştirak edə biləcəklər.

***

Elm və təhsil naziri Emin Əmrullayev 31 oktyabr tarixində Salyan şəhərində vətəndaşları qəbul edəcək.

Qəbulda Salyan, Şirvan, Hacıqabul, Neftçala və Biləsuvar sakinləri iştirak edə bilərlər. Adları çəkilən şəhər və rayonların sakinləri 17 oktyabr (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 - 2 və 146 - 6 nömrəli telefonlarına (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının *https://edu.gov.az/az/contact_us* bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə "WhatsApp" vasitəsilə müraciət göndərmək mümkündür.

Nəzərinizə çatdırırıq ki, qəbulda iştirak üçün qeydiyyat mütləqdir.

# Vətəndaş müraciətlərinin STATİSTİKASI

Sentyabrın 16-dan 30-dək Elm və Təhsil Nazirliyi, eləcə də qurumlarına 41811 vətəndaş müraciəti daxil olub. Müraciətlərin 26523-ü çağrı mərkəzləri, 7174-ü elektron, 1644-ü isə yazılı formada yönləndirilib. Həmçinin vətəndaş qəbulu zamanı 6470 müraciət qeydə alınıb. Müraciətlər müəllimlərin iş yerinin dəyişdirilməsi, tələbə krediti, şagird yerdəyişməsi, xarici diplomların tanınması, məktəbəhazırlıq qrupları, məktəbəqədər təhsil və digər məsələlərlə bağlı olub.

# 5 OKTYABR BEYNƏLXALQ MÜƏLLİMLƏR GÜNÜDÜR

## Şəhid anası müəllim

Vətən müharibəsi dövründə şəhid alovu düşüb yandırdığı ailələrdən biri oldu Arzu müəllimin evi. Oğlu Əlihüseynin şəhadət xəbəri ilə ürəyi qovrulub, birçəyi ağardı bir gecədə. Arzu Məmmədova Şəki rayonundandır. 1974-cü ildə anadan olub. Şəki şəhəri 11 nömrəli tam orta məktəbi bitirib müəllim olmaq istəyib. Azərbaycan Dövlət Pedaqoji Universitetində “İbtidai sinif müəllimliyi” ixtisası üzrə təhsil alıb, ilk dəfə 1996-cı ildə Bakı şəhərindəki 220 nömrəli tam orta məktəbdə sinfə girib, əvvəlcə müəllim, sonra direktor müavini işləyib. 2022-ci ildən 226 nömrəli tam orta məktəbin direktorudur.



### “Oğlum xidmət etdiyi hərbi hissədə 2 ali təhsilli əsgərdən biri olub”




Karyera pilləsində irəliləyərkən ailəsi də böyüyüb: “3 övladım var, iki oğlan, bir qız. Əlihüseyn şəhid olsa da, o, hələ də mənim ikinci övladım olaraq qalır”.

2020-ci ildən bəri iki oğlundan biri yoxdur, öz ifadəsi ilə desək, ona əli çatmır, o anasının səsini eşitmir.

Əlihüseyn sentyabrın 27-dən ön cəbhədə döyüşüb. Füzulinin Qaraxanbəyli kəndi onun son döyüş yeri olub. Oktyabrın 9-da şəhid olan balası barəsində deyilənlər valideyn kimi köksünü qabardıb, ürəyi qürurla döyünüb: “Əlihüseyn oktyabrın 9-da saat 9.25-də minamyot qəlpəsi ilə ürəyindən aldığı yaradan şəhid olub. O günə qədər hər kəsin hörmətini qazanıb, komandirlərinin tapşırıqlarını nümunəvi şəkildə yerinə yetirib”.

Əlihüseyn Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin məzunu olandan sonra hərbi xidmətə gedib: “Energetika mühəndisliyi” ixtisası üzrə təhsi aldı. Universiteti bitirən kimi çağırış gözləmədən özü gedib müraciət etdi. Füzuli rayonundakı hərbi hissələrdən birində xidmətə başladı. Müharibə başladığı gündən isə Füzuli istiqamətində gedən döyüşlərə qoşulub. Komandiri dedi ki, tapşırıqları birinci o yerinə yetirib, əmri yerinə yetirməyə ilk o gedib. Hər tapşırığı layiqincə yerinə yetirib. Xidmət etdiyi hərbi hissədə iki ali təhsilli əsgərdən biri olub”.

Həm şagird, həm tələbə, həm də əsgər kimi nümunəvi olub Arzu müəllimin yetişdirdiyi oğul. Hər yerdə davranışı, insanlara münasibəti, başqaları ilə ünsiyyətinə görə təqdir edilib.

2020-ci il oktyabrın 9-da Füzuli- Cəbrayıl- Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olan əsgər “Vətən Müharibəsi Qəhrəmanı”, “Vətən uğrunda” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunub.

Şəhid anası Arzu Məmmədova həyatı boyu özünü inkişaf etdirərək bir sıra bacarıqlar qazanıb, müəllimlikdə yüksəlib, karyera pilləsində yüksəlib, məktəb idarəetməsində böyük təcrübə toplayıb. 1996-cı ildən bəri yüzlərlə şagirdə müəllim, bir o qədər insana bələdçi, məsləhətçi olub.

Peşə bayramın mübarək olsun, ŞƏHİD ANASI MÜƏLLİM!




## Bankı deyil, məktəbi seçdi

### Sertifikatlaşdırmada 59 bal toplayan Rahim Cəbiyevin müəllimlik yolu



Sabah Beynəlxalq Müəllimlər Günüdür. Məktəbin əsas iştirakçısı olan müəllimlər öz peşə bayramlarını qeyd edirlər. Sertifikatlaşdırma prosesinin uğurlularından biri 149 nömrəli tam orta məktəbin informatika müəllimi Rahim Cəbiyev “Azərbaycan müəllimi”nə bildirib ki, şagirdləri həmin günü onlar üçün əsl bayrama çevirə bilirlər.

#### Müəllimə şagirdlərindən özəl hədiyyə

Şagirdləri elə hədiyyə seçiblər ki, həm özünəməxsus olur, həm də onun üzünü güldürür: “Məsələn, tort hazırlatdırıb üzərinə ən çox istifadə etdiyim sözləri yazdırırlar, buna çox gülürəm. Məsələn, diqqət çəkmək üçün deyirəm “Bura bax, bura bax”, əzizləyəndə “Ay allah”, fikirləri dağılanda “Niyə yatmısız?”, “Mənə qulaq asan var?”, “Oynayırsan balaaa”, - kimi sözlərdən çox istifadə edirəm. Onların da diqqətini çəkib və mənim üçün hazırlatdırdıqları tortların üstünə yazdırırlar”.

#### Müəllimliyi oxuyub bankda işlədi, ancaq...

Rahim Cəbiyev Bakı Dövlət Universitetinin (BDU) Tətbiqi riyaziyyat və Kibernetika (hazırkı Kompüter elmləri) fakültəsini bitirib. Bir müddət bankda çalışıb: “Tələbəlik dövründə bir müddət bankda çalışmışam. 3 il bu işdə çalışdıqdan sonra öz ixtisasıma qayıtmağa qərar verdim. Çünki hiss edirdim ki, mən müəllim olmaq, təhsil sahəsində fəaliyyət göstərmək istəyirəm. Yolum budur, burada getməliyəm”.

Artıq 10 ildir bu yolda qətiyyətlə yürüyən müəllim işləyə-işləyə Milli Aviasiya Akademiyasının Kompüter mühəndisliyi fakültəsində magistratura təhsili alıb.

#### Sevimli müəllim olmaq üçün

10 illik müəllimlik fəaliyyəti dövründə şagirdlərinin sevimlisinə çevrilən Rahim müəllim deyir, buna nail olmaq üçün çox çalışıb: “2016-cı ilin sentyabrından müəlliməm. Mütəmadi olaraq öz üzərimdə işləyirəm. Hər il müəllimlərin işə qəbulu imtahanlarında iştirak edirəm. Bu il də iştirak edib 82.5 bal toplamışam”.

Sertifikatlaşdırmada da 59 bal toplayan Rahim müəllim deyir ki, hər gün öyrənir, özünü inkişaf etdirir: “Bu tədris ilinə də hər zamankı kimi başlamışam. Dərsdən sonra kompüter arxasına keçərək layihələr hazırlayır, işlərimi planlaşdırıram. Şagirdlərimin qarşısına əlidolu çıxmaq üçün əlimdən gələni edirəm. Çünki bilirəm ki, yenilənən dünyada şagirdlərin gözləntiləri və istəkləri çoxdur, bu istəkləri qarşılaya bilmək üçün də müəllimin yerində sayması mümkün deyil. Əks halda, zamanın nəbzini tuta bilməz, sürəti ilə ayaqlaşa bilməz. Odur ki, öz biliyimi artıraraq yeniliklərdən vaxtında xəbər tutmağa çalışıram. Dünyagörüşümü artıraraq şagirdlərimin gözləntilərini doğrultmağın məsuliyyətini hiss edirəm”.

Rahim müəllim deyir ki, maraqlı tədris prosesi təşkil edib, daha çox şagirdi cəlb etməyə, hər bir iştirakçı üçün öyrənmə mühiti yaratmağa çalışır: “Dərslərimdə interaktivliyə diqqət edirəm. Şagirdlərimin yaxşı öyrənməsi üçün onları həvəsləndirməyə çalışıram. Dərsdə əsas məqsədim odur ki, xüsusi metodlarla daha çox şagirdimi dərs prosesinə cəlb edib və onların öyrənməsini təmin edim”.

## İlk müəllimim

### Mənim müəllim anam



**Hər kəsin ilk müəllimi var, elə deyilmi? Hər kəs birini özünə müəllim sayır. Mənim də qürurla “ilk müəllimim” dediyim bir pedaqoq var: o, həm də mənim anamdır.**

Budəfəki hekayəmin qəhrəmanı da odur! Sadəcə hekayəminmi? Həyatımın qəhrəmanıdır o. Anam idi, müəllimim oldu, sonra kumirim. Günün birində anladım ki, hədəflərim, xəyallarım, arzularım - hamısının mərkəzində məhz o dayanıb.

Bütün valideynlər kimi, o da özü bacarmadıqlarını mənə etdirdi, özündə reallaşdıra bilmədiklərini məndə görmək istədi. Amma həyatıma, qərarlarıma müdaxilə etmədən bacardı bunları.

O mənim ilk müəllimimdir, çünki hər şeyi ondan öyrəndim. Məsələn, danışmağı öyrəndim ondan. Sonra ayaq açdım, əlindən tutub yeridim, yıxıldım, ətəyindən tutub qalxdım, yəni yıxılanda durmağı öyrəndim ondan. Bağçaya getmədən şeir deyib, hekayə danışdım. Qiraət bacarığımı o inkişaf etdirdi. Dərslərimi fənn müəllimlərindən əvvəl o dinlədi, yazdığım inşaları əvvəlcə o oxudu.

O, öyrənməyi öyrətdi mənə, göstərərək öyrətdi. Mənimlə bərabər o da dəftər-kitab tökdü qabağına. Hər il tədris proqramı hazırladı, hər gün gündəlik tutdu, “Sabah dərsim var!” - cümləsindəki məsuliyyəti öyrətdi. Dərs varsa, hazırlaşmaq lazımdır, bunu öyrəndim anam-müəllimimdən. Eyni mövzunu bir neçə kitabdan oxumağı, bir suala bir neçə mənbədən cavab axtarmağı da ilk dəfə onda gördüm. Onun yönləndirməsi ilə verilən mövzunu həm də başqa kitablardan oxudum, dərs danışarkən dərslikdən kənara çıxmağı öyrəndim. Ondan öyrəndiklərimin sayı-hesabı yoxdur.

Qorxu hissini də onunla tanıdım, sevməyi də o öyrətdi. Ən çox ondan qorxdum, hamıdan çox onu sevdim.

40 ilin müəllimi Səadət müəllimdir hekayəmin budəfəki qəhrəmanı.

Səadət Osmanova 1955-ci il oktyabrın 16-da Qazax rayonunun Daşsalahlı kəndində anadan olub. Əvvəlcə M.Ə.Sabir adına texnikumu (hazırda Azərbaycan Dövlət Pedaqoji Kolleci adı ilə fəaliyyət göstərir), sonra isə Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunu (Bu təhsil müəssisəsi isə Azərbaycan Dövlət Pedaqoji Universitetidir) bitirib. Uzun müddət Qazax rayon Qarapapaq kənd natamam orta məktəbində rəsmxət, əmək təlimi (Texnologiya), təsviri incəsənət fənlərini tədris edib, tədris işləri üzrə direktor müavini olub. Sonra fəaliyyətini Xırdalan şəhər 2 nömrəli tam orta məktəbində davam etdirib, daha sonra 9 nömrəli tam orta məktəbində dərs deyib. Xırdalan şəhərində fəaliyyət göstərən İqtisadiyyat və Humanitar Kollecinin müəllimlərindən biri olub.

Qəzetlər oxuyub, kitabxanalardan çıxmayıb. Daim öz üzərində çalışıb. Bu sayədə yalnız mənim, başqa şagirdlərinin yox, həmkarlarının da müəllimi olub. Hər yeniliyi məktəbdə ondan soruşub, ondan öyrəniblər. “Məktəbə yoxlama gəlir” deyiləndə gözlər onu axtarıb, qəfil qonaqları onun sinfinə aparıb, onun “Açıq dərs”lərinə dəvət ediblər. Fədakar müəllimliyindən söhbət açılıb, adından danışılıb. Diaqnostik qiymətləndirmə imtahanlarında 60 baldan 55 bal toplayıb.

#### O hələ də müəllimdir

Səadət Osmanova 2020-ci ildən təqaüdə çıxıb. Ancaq o, özünü hələ də müəllim kimi hiss edir. Müəllimlər gününün qeyd edildiyi ay həm də Səadət müəllimin doğulduğu aydır. Bu il 70 yaşını qeyd edir keçmiş təhsil işçisi. Amma bu gün də özünə müəllim məsuliyyəti ilə yanaşır. Qapıdan çıxanda “Şagirdlərimə rast gələrəm” deyir günü bu gün də. Müəllim kimi geyinir, müəllim duruşunu itirməməyə çalışır hər gün dərsə girməsə də. İlk dəfə qarşılaşdığımız insanların “müəllimsiniz?” deyib, onu bir baxışdan tanıması isə adi hal alıb. Amma bu hal onun üçün heç adiləşmir. Hər dəfə müəllimliyini üzündən, duruşundan, geyimindən tanımaları çöhrəsinə məmnunluq, gözlərinə sevinc gətirir. Hələ “Müəllim, siz mənə dərs demisiniz”, - deyən biri ilə qarşılaşmaq onun üçün nə deməkdir, təsəvvür edirsiniz yəqin.

Çünki o hələ də müəllimdir, insanların gözündə də, elə öz gözündə də. Adını bilməyənlər müəllim olduğunu bilirlər. Ona görə adı ilə deyil, “müəllim!” deyə çağıranlar daha çoxdur. Elə o özü də hələ də özünü “Mən Səadət müəlliməm” deyə təqdim edir.

Ömrünün 70-ci ili mübarək olsun, Səadət müəllim!

Peşə bayramınız mübarək olsun, təqaüddə də özünü müəllim kimi hiss edənlər.

Gününüz mübarək, müəllim adını uca tutanlar, müəllimliyi ilə qürur duyanlar!

Səhifəni hazırladı: Ruhiyyə DAŞSALAHLI

# QƏRBİ AZƏRBAYCAN
# BİZ QAYIDACAĞIQ!

## "Mənim Qərbi Azərbaycanım – Xatirələr" kitabının təqdimatı keçirilib



### Əsas məqsəd Qərbi Azərbaycanla bağlı tarixi daha dərindən öyrənmək və gənclərə çatdırmaqdır

**Firudin QURBANOV:**

"Keçmişini bilməyən xalqın uğurlu gələcəyi ola bilməz. Məhz buna görə də Qərbi Azərbaycanla bağlı bütün tarixi məqamları öyrənmək lazımdır. Qərbi Azərbaycanın maddi və qeyri-maddi irsi, ümumi ənənələri haqqında dolğun məlumatları gələcək nəsillərə təqdim etmək çox önəmlidir, çünki bu, gənclərimizdə vətənpərvərlik hisslərini formalaşdırır. Tarixi bilən insan gələcəkdə baş verən hadisələri düzgün qiymətləndirə bilər. "Qərbi Azərbaycana qayıdış" konsepsiyasına uyğun olaraq, Elm və Təhsil Nazirliyinin bir sıra layihələri həyata keçirilir. Bu istiqamətdə Azərbaycanın bir sıra ali məktəblərində Qərbi Azərbaycan mərkəzləri yaradılıb və bu mərkəzlərdə müvafiq araşdırmalar, tədqiqatlar aparılır. Əsas məqsəd də Qərbi Azərbaycanla bağlı tarixi daha dərindən öyrənmək və gənclərə çatdırmaqdır. Bu, ən əsas missiyalardan biridir".






Elm və Təhsil Nazirliyi və Qərbi Azərbaycan İcmasının birgə təşəbbüsü ilə Qərbi Azərbaycandan olan müəllimlərin xatirələrini əks etdirən "Mənim Qərbi Azərbaycanım — Xatirələr" kitabının təqdimat mərasimi baş tutub. Kitab müəlliflərin özlərinin və valideynlərinin xatirələrinə əsaslanan məqalələr toplusudur.

Tədbirin açılışında çıxış edən Qərbi Azərbaycan İcmasının sədri, millət vəkili Əziz Ələkbərli bildirib ki, müəlliflər Qərbi Azərbaycan əsillidir və hazırda ölkənin müxtəlif bölgələrində pedaqoji fəaliyyətlə məşğuldurlar.

Təqdimat mərasimində iştirak edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov öz növbəsində vurğulayıb ki, bu kitab gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsinə, Qərbi Azərbaycan həqiqətlərinin tanıdılmasına mühüm töhfə verəcək. Nazir müavini bildirib ki, keçmişini bilməyən xalqın uğurlu gələcəyi ola bilməz. Buna görə də Qərbi Azərbaycanla bağlı bütün tarixi məqamların öyrənilməsi zəruridir.

Digər çıxışçılar da Qərbi Azərbaycan irsinin qorunmasının, həqiqətlərin dünyaya çatdırılmasının və gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin vacibliyini xüsusi qeyd ediblər.

Çıxış edən layihənin meneceri, Elm və Təhsil Nazirliyinin Daxili nəzarət şöbəsinin əməkdaşı, Azərbaycan Yazıçılar Birliyinin üzvü Rövşən Ağayev isə kitabın yalnız ölkə daxilində deyil, beynəlxalq müstəvidə də tanıdılmasının əhəmiyyətinə diqqət çəkib və nəşrin pedaqoji prosesdə də faydalı ola biləcəyini bildirib.

**Mərziyyə KAZIMZADƏ**

## 100 yaşlı məktəbdən kitab yazıldı




Pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi Fərrux Rüstəmovun "Qərbi Azərbaycanın Çəmbərək rayonunun Cil kənd orta məktəbi-100" kitabının təqdimatı olub.

Tədbirdə kitabın ideya müəllifi iqtisad elmlər doktoru, professor, Əməkdar müəllim Əvəz Ələkbərov, müəllifi Fərrux Rüstəmov, elmi məsləhətçisi, Qərbi Azərbaycan İcmasının sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli, elmi redaktor Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fəlsəfə və sosial elmlər kafedrasının baş müəllimi Fərzalı Rüstəmli, rəyçi filologiya elmləri doktoru, professor Sayalı Sadıqova və Cil kənd icmasının üzvləri iştirak ediblər.

### "Bu kitab təkcə məktəb yox, kənd haqqındadır"

Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli qeyd edib ki, bu kitab, sadəcə bir məktəbin tarixi deyil: "Bu kitab təkcə Cil məktəbi haqqında deyil, Cil kəndi haqqındadır. Burada məruz qaldığımız deportasiyalar, soyqırımlar, 200 il ərzində Qərbi Azərbaycanın keçdiyi yoldan danışılır".

O qeyd edib ki, kitabda məktəbin məzunlarının siyahısı da var: "Belə bir siyahı ilk dəfə təqdim edilir".

### Kənddən olan hər kəs haqqında məlumat var

Fizika-riyaziyyat elmləri doktoru, professor Misir Mərdanov kitabın çox əhatəli olduğunu deyib: "Bir məktəb haqqında bu qədər geniş, böyük əhatəli kitab görməmişəm. Cil kəndindən olan insanların əksəriyyətinin şəkilləri var, o cümlədən I və II Qarabağ müharibəsində şəhid olan 17 nəfər haqqında da geniş məlumat verilib. Kənd məktəbinin direktorları, müəllimləri, həkim, mühəndis, iqtisadçı, hərbiçi məzunları haqqında da buradan maraqlı faktlar oxumaq olar".

### Milli kimliyini göstərən kitab

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru professor Mahirə Hüseynova kitabın üslubunun orijinallığını qeyd edərək onun hazırlanmasındakı çətinliklərə toxunub.

Kitabda şəkillərin önəminə diqqət çəkən professor onları əldə etməyin hər zaman çətin olduğunu vurğulayıb. Buna baxmayaraq, bu kitab vizual informasiya çoxluğu ilə seçilir: "Kitabı yazmaq asan deyil, xüsusilə də belə kitabları. Kitab Göyçə aşıq məktəbinin ənənəsini xatırladır. Onun marağı mündəricatından başlayır. Sonluğunda "Cil kəndində görüşənədək" ifadəsinin qeyd olunması insanda ümid yaradır".

Təqdimatda çıxış edən professor Əvəz Ələkbərov vurğulayıb ki, barəsində danışdıqları kitab insanların hansı nəsildən olduğunu aydınlaşdırmağa kömək edə bilər. O əlavə edib ki, kitabda poeziyaya, kəndin yazarları, məktəbin general məzunları haqqında məlumatlara geniş yer verilib.

### Bu kitab kəndimizin yaddaşıdır

Müəllif Fərrux Rüstəmov deyib ki, bu kitab keçmişlə gələcək arasında körpüdür: "Bu kitab kəndimizin bioqrafik yaddaşıdır. Bu günümüz, sabahımız arasında bir körpüdür. Biz gələcəyə tarixin çiynində gedirik. Gənc nəsil üçün bir yaddaş kitabı, xatirə kitabı olsun deyə dostlarımın köməyi, dəstəyi ilə bu kitabı ərsəyə gətirdik. Gələcəkdə də bu tip əsərləri davam etdirəcəyəm".



"Dünya Cil kəndindəki evimizdən başlanır", - deyən müəllif kitabda öz ailəsinə də yer verib.

F.Rüstəmov əlavə edib ki, bu kitab ölkə Prezidentinin müvafiq çağırışına uyğun olaraq ərsəyə gəlib.

Filologiya elmləri doktoru, professor Sayalı Sadıqova bildirib ki, kitab Çəmbərək kəndi haqqında fikir formalaşdırır. Onu "ensiklopedik material" hesab edən S.Sadıqovanın sözlərinə görə, burada bir kəndin yox, böyük bir mahalın keçmişi var: "Xalqın abidəsi, məbədgahı olan qəbiristanlığın da şəkli verilən kitabda, sadəcə Çəmbərək kəndi deyil, Göyçə mahalı haqqında da geniş məlumat əks olunub".

Tədbirdə Qərbi Azərbaycan İcmasının üzvləri professor İbrahim Bayramov, professor Həsən Bayramoğlu, ADU-nun Təhsil fakültəsinin dekanı, professor Hikmət Əlizadə çıxış ediblər. Qeyd edilib ki, belə kitabların çap olunması Qərbi Azərbaycanın daha dərindən öyrənilməsinə və bu bilgilərin cəmiyyətə ötürülməsinə imkan verir.

**Nərmin MƏMMƏDZADƏ**

# Yeniləşən Azərbaycana yeni məktəb

## Paytaxt və bölgələrdə yeni məktəb binaları istifadəyə verilib













Heydər Əliyev Fondunun paytaxtda yeni tədris ilində istifadəyə verdiyi növbəti təhsil müəssisəsinin ünvanı Xəzər rayonu 324 nömrəli tam orta məktəbdir.

"Azərbaycan müəllimi" xəbər verir ki, 2007-ci ildə inşa olunan məktəbin binası ötən müddət ərzində köhnəlmiş və istifadəyə yararsız vəziyyətə düşmüşdü. Şagird sıxlığı yaşandığından məktəb 3 növbəli fəaliyyət göstərib, təhsil ocağında emalatxana və laboratoriya olmayıb.

Heydər Əliyev Fondu tərəfindən 2024-cü ilin sentyabr ayından məktəbdə yenidənqurma və təmir-bərpa işlərinə başlanılıb. Layihə çərçivəsində məktəbin sinif otaqlarının sayı artırılıb, həmçinin əlavə fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, texnologiya otaqları, kitabxana, yeməkxana, idman meydançası və akt zalı yaradılıb.

Həyətyanı ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılıb. Məktəb artıq yeni təhsil ilindən müəllim və şagirdlərin istifadəsinə verilib.

***

Samux rayonunun Alıuşağı kəndində yeni inşa olunan tam orta məktəb binası istifadəyə verilib.

Məktəb binasının açılışında Heydər Əliyev Fondunun nümayəndəsi Cəmil Əliyev, Samux Rayon İcra Hakimiyyətinin başçısı Firdovsi Əliyev, Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin müdiri Elçin Kərimov, məktəbin müəllim və şagird kollektivi iştirak ediblər.

Qeyd edək ki, 360 yerlik məktəb binası Heydər Əliyev Fondu tərəfindən tikilib. Məktəbin sinif otaqları ilə yanaşı, fizika, kimya, biologiya laboratoriyaları, informatika, STEAM Mərkəzi, hərbi təlim, tibb, texnologiya, məktəbəqədər sinif otaqları, kitabxana, yeməkxana, akt və idman zalları var, məktəbin ərazisində açıq idman meydançası yaradılıb. Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə təchiz edilib.

***

Daha bir yeni məktəb binası Cəlilabad rayonunun Göytəpə şəhərində istifadəyə verilib.

Vasif Hüseynov adına 2 nömrəli tam orta məktəb üçün yeni binanın inşasına Heydər Əliyev Fondu tərəfindən 2024-cü ilin oktyabr ayında başlanılıb. Qısa müddətdə tikinti işləri başa çatdırılıb, müasir tələblərə cavab verən təhsil ocağı inşa olunub.

Üçmərtəbəli, iki korpusdan ibarət 625 şagird yerlik məktəb binasında sinif otaqları, fizika, kimya və biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb otaqları, texnologiya kabinetləri, müəllimlər otağı, texniki otaqlar, qarderob, kitabxana, yeməkxana, akt, idman və gimnastika zalları, açıq mini stadion - idman meydançası fəaliyyət göstərəcək.

Məktəb binası zəruri mebel və avadanlıqlarla təchiz olunub, fənn kabinetləri və laboratoriyalar isə müasir əyani vəsaitlərlə təmin edilib. Bundan əlavə, məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

# Azərbaycan və Özbəkistan nümayəndələri media və kommunikasiya sahəsində əməkdaşlığı müzakirə ediblər

"Rəqəmsal transformasiya və media" mövzusunda II Azərbaycan—Özbəkistan Media Forumu çərçivəsində Bakıya səfər edən Özbəkistanın Məktəbəqədər və Məktəb Təlimi Nazirliyinin İnformasiya Xidmətinin rəhbəri Dilfuza Sobirova ilə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyində (MÜTDA) görüş keçirilib.

Görüşdə MÜTDA-nın direktor müavini Vəfa Yaqublu, Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Səbuhi Rzayev və agentliyin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Zenfira Sevdimalı iştirak ediblər.

Müzakirələr əsasən ictimaiyyətlə əlaqələr və kommunikasiya sahəsində əməkdaşlıq imkanlarına həsr olunub. Tərəflər təhsil sahəsində kommunikasiya fəaliyyətinin təşkilində qarşılıqlı təcrübə mübadiləsi, hədəf auditoriyasının düzgün məlumatlandırılması, yeni layihələrin reallaşdırılması və rəqəmsal transformasiya fonunda effektiv kommunikasiya mexanizmlərinin tətbiqi barədə fikir mübadiləsi aparıblar.






Azərbaycan təhsil sistemində həyata keçirilən yeniliklərlə tanış olan Dilfuza Sobirova öz növbəsində Özbəkistanın bu istiqamətdəki təcrübəsini bölüşüb və gələcək əməkdaşlıq üçün yeni imkanların olduğunu qeyd edib.

Səfər çərçivəsində qonaq Bakı Avropa Liseyini ziyarət edib, təhsil müəssisəsində yaradılmış müasir tədris mühiti ilə tanış olub.

# Elm və yaradıcılığın bayramı

## "ALPLogo-2025" və "SketchUp-2025" qalibləri mükafatlandırıldı

Sentyabrın 28-də Bakı şəhəri 283 nömrəli tam orta məktəbdə Azərbaycanın orta və ali təhsil sistemində informatika fənninin təşəkkülündə və inkişafında əvəzsiz xidmətləri olan görkəmli alim və pedaqoq Ramin Mahmudzadənin 90 illiyinə həsr edilmiş "ALPLogo" proqramlaşdırma olimpiadası və "Ən yaxşı üçölçülü model" müsabiqəsi qaliblərinin mükafatlandırma mərasimi keçirilib.

Qeyd edək ki, "ALPLogo" komandalar sistemi Azərbaycan dilində olan ilk proqramlaşdırma mühitidir. 1967-ci ildə Massaçusets Texnologiya İnstitutunun əməkdaşları Uolli Feurzeiq, Seymur Peypert və Sintia Solomon tərəfindən LOGO proqramlaşdırma dili yaradılıb. Bu dil vasitəsilə kiçikyaşlı məktəblilər proqramlaşdırma konsepsiyasının əsaslarını öyrənir, onlarda düşüncə və məsələ həlli vərdişləri inkişaf etdirilir. LOGO mühiti uşaq personajına çevrilmiş Bağanın hərəkətlərinin proqramlaşdırılmasına əsaslanır. Bağa hərəkət etdikcə iz qoyur və nəticədə rəngarəng görüntülər alınır.

LOGO proqramlaşdırma dili dünyanın bir çox dilləri üçün lokallaşdırılıb. "ALPLogo" adlanan Azərbaycan versiyası 2012-ci ildə ümumtəhsil məktəbləri üçün "İnformatika" dərsliklərinin müəllifləri (Ramin Mahmudzadə, İsmayıl Sadıqov, Naidə İsayeva) və proqramçı Cəmşid Naxçıvanskidən ibarət qrup tərəfindən "Bakı" nəşriyyatında işlənib hazırlanıb və bu günədək respublika məktəblərində böyük uğurla istifadə olunmaqdadır.



Proqram mühiti V, VI və VII sinif "İnformatika" dərsliklərinə daxil edilmiş və respublika məktəblərinə ödənişsiz yayılması təmin olunmuşdur. Proqramın başlıca özəlliyi komandaların Azərbaycan, ingilis və rus dillərində yazıla bilməsindədir. Azərbaycan və rus bölmələrində dərs zamanı müəllimlərin hər hansı dildə yazılmış hazır kodlardan asanca istifadə etmələri üçün proqramda interfeys dilinin dəyişdirilməsi ilə yanaşı, kodun bir dildən başqa dilə avtomatik çevrilməsi imkanı da vardır.

"SketchUp" proqramı obyektlərin üçölçülü modellərini yaratmaq üçün nəzərdə tutulan müasir proqramlardandır. "Autodesk Maya", "3D Max", "AutoCAD" kimi mükəmməl və mürəkkəb proqramlarda işləmək üçün "SketchUp" proqramı çox uğurlu başlanğıcdır. Bu proqramda iş vərdişlərinin formalaşdırılması informatikanın riyaziyyat, təsviri incəsənət, texnologiya fənləri ilə inteqrasiyasını təmin edir. "İnformatika" fənninin əsas məzmun xətlərindən birinin modelləşdirmə olduğunu nəzərə alaraq, "SketchUp" proqramı ilə bağlı mövzular 2011-ci ildə 7-ci sinif "İnformatika" dərsliyinə daxil edilmişdir. Hazırda isə yeni kurikuluma uyğun olaraq, bu proqram 8-ci sinifdə öyrədilir.

Xatırladaq ki, "Ən yaxşı üçölçülü model" müsabiqəsi 2013-cü ildən, "ALPLogo" proqramlaşdırma olimpiadası isə 2014-cü ildən keçirilir. Builki yarışlar 12 aprel 2025-ci il ("Ən yaxşı üçölçülü model" müsabiqəsi) və 14 may 2025-ci il (ALPLogo proqramlaşdırma olimpiadası) tarixlərində baş tutub. Yarışlar Bakı şəhəri 283 nömrəli tam orta məktəbdə, eləcə də Balakən, Xırdalan, Goranboy, İsmayıllı, Neftçala, Sahil, Quba, Şabran, Şamaxı, Şirvan, Sumqayıt, Xaçmaz, Yardımlı, Zaqatala şəhərlərində ayrılmış mərkəzlərdə keçirilib. "Ən yaxşı üçölçülü model" müsabiqəsində ümumilikdə 7-10-cu siniflərin 149 şagirdi, "ALPLogo" olimpiadasında isə 5-7 siniflərin 202 şagirdi iştirak edib.

Mükafatlandırma tədbirini giriş sözü ilə məktəbin informatika müəllimi, "İnformatika" dərsliklərinin həmmüəllifi, Əməkdar müəllim Naidə İsayeva açaraq yarışlar haqqında ümumi və statistik məlumatları diqqətə çatdırıb. Sonra çıxış edən Azərbaycan Respublikası Təhsil İnstitutu yanında Tədris Resursları Mərkəzinin direktor müavini İsmayıl Sadıqov, "PAŞA Sığorta" İnformasiya Texnologiyaları və İnnovasiyalar Departamentinin direktoru Cəmşid Naxçıvanski bu müsabiqələrin informatika fənninə marağın artırılmasındakı rolunu vurğuladılar. Müsabiqələrin ənənəvi olaraq keçirilməsinin məktəblilərdə proqramlaşdırma və modelləşdirmə bacarıqlarının inkişafına, informatikanın digər fənlərlə inteqrasiyasına mühüm töhfə verdiyi qeyd olundu.

Sonra qaliblərə mükafatlar təqdim edildi. Bu yarışların təşkilində fəal iştirak etmiş və şagirdləri müsabiqələrin qalibləri olmuş informatika müəllimlərinə də sertifikatlar verildi.

**Şölə RƏŞİDQIZI**



# Şəhidlərimizi tanıyaq və tanıdaq

## Şagirdlər şəhid məzunlar haqqında QR kodlar hazırlayıblar

ŞƏHİDLİK müqəddəslikdir. Şəhidlik Vətənə olan sonsuz sevginin təcəssümü, Vətənə can fəda etməkdir. Şəhidlik şərəf, qeyrət, ucalıq, əlçatmaz zirvədir. Bu məqama yüksəlmək hər insana nəsib olmur. Yalnız seçilmişlər bu zirvəni fəth edir.

Qürur mənbəyimiz olan Şəhidlərimizin sırasında Səbail rayonu R.Hüseynov adına 49 nömrəli "İntellekt" məktəb-liseyin məzunları da var: Rəfail Hüseynov, Cəbrayıl Əsgərov, Nadir Hüseynov, Nicat Şükürlü, Vüsal Həsənov, Tacəddin Əzizli və Aydın Nəsirov. Onlar I və II Qarabağ müharibəsində qəhrəmanlıq göstərərək canlarını vətən uğrunda fəda verən məzunlarımızdır. 44 günlük Vətən müharibəsində torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə qalxan Səbail rayon igidləri haqq savaşına məhz 49 nömrəli məktəbdən yola salınıb. Təsadüfi deyil ki, təhsil ocağımız məktəbin məzunu şəhid Rəfail Maarif oğlu Hüseynovun adını daşıyır.

Kollektivimizdə şəhid ailələrinə böyük diqqət və qayğı göstərilir. Məktəbin direktoru Elza Bağırzadə mütəmadi olaraq şəhid ailələri ilə görüşlər təşkil edir. Şəhidlərin valideynləri qürur hissi ilə məktəbə gəlirlər. Onlar tədbirlərimizin ali qonaqları olaraq şagirdlərə qəhrəmanlarımızın keçdikləri şərəfli həyat yolundan söhbət açır, onların vətənpərvərlik ruhunda böyüməsinə əvəzsiz töhfə verirlər.

Şəhidlərimizi gələcək nəsillərə yaxından tanıtmaq biz müəllimlərin əsas vəzifəsidir. Bu məqsədlə məktəbdə fəaliyyət göstərən "Kiçik Akademiya"nın rəhbəri və üzvləri şəhid məzunlarımız haqqında QR kodlar hazırlamaq təşəbbüsü irəli sürdülər. Bu uğurlu təşəbbüs öz müsbət nəticəsini verdi. QR kod tətbiqi vasitəsilə həm məktəbimizi, həm də məktəbin şəhid məzunlarını yaxından tanımaq daha əlçatan oldu. QR kodlar şəhid tablolarının üzərində yerləşdirilib. Məktəb kollektivi və qonaqlar kodları oxutmaqla şəhid məzunlar, onların həyatı, həmçinin döyüş şücaəti ilə yaxından tanış ola bilirlər.

Siz də bu QR kodu oxudun, məktəbimizi və məktəbimizin şəhid məzunlarını yaxından tanıyın.

Allah bütün Şəhidlərimizə rəhmət eləsin!

**Şəhla ƏLİYEVA,**
*Bakı şəhəri 49 nömrəli "İntellekt" məktəb-liseyin müəllimi, "Kiçik Akademiya"nın rəhbəri*


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 37999 **Sifariş:** 2047

**Məsul növbətçi:** S.Kərimova


# Qubadlı məktəblisi robot olimpiadasında I yerə layiq görülüb



## Qaliblər Sinqapurda keçiriləcək XXII Dünya Robot Olimpiadasında Azərbaycanı təmsil edəcəklər

Qubadlı rayonu Çaytumas kənd Hafiz Quliyev adına Texniki fənlər təmayüllü məktəb-liseyin VII sinif şagirdi Hüseyn Şirinzadənin də tərkibində olduğu "ProElementary" komandası VIII Robot Olimpiadasında "Robomission" kateqoriyası üzrə qızıl medal qazanıb.

Yarış 26-28 sentyabr 2025-ci il tarixlərində Gənclər və İdman Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, Dünya Robot Olimpiadası Assosiasiyası və Azərbaycan Robotexnika Mühəndisliyi Akademiyasının birgə təşkilatçılığı ilə keçirilib. Olimpiadanın final mərhələsində 8-19 yaş arası yeniyetmə və gənclərdən ibarət 153 komanda iştirak edib.

Qeyd edək ki, qaliblər bu ilin noyabrın 26-28-də Sinqapurda keçiriləcək XXII Dünya Robot Olimpiadasında Azərbaycanı təmsil edəcəklər.

Abdurahman Khamidullayev Özbəkistan Respublikasının Daşkənd Maliyyə İdarəçiliyi və Texnologiyaları üzrə Beynəlxalq Universitetinin (TİFT) "İnformasiya texnologiyaları" ixtisasının 3-cü kurs tələbəsidir. Hazırda mübadilə proqramı çərçivəsində Bakı Mühəndislik Universitetində (BMU) təhsil alır.

Bu barədə universitetdən "Azərbaycan müəllimi"nə məlumat verilib.

Mübadilə proqramının akademik və şəxsi inkişafında əvəzsiz rol oynadığını deyən özbəkistanlı tələbə BMU-dakı güclü akademik mühitin, təcrübə proqramları və müxtəlif layihələrin ona arzu etdiyi təhsili almağına imkan verdiyini söyləyir: "BMU-da müasir ixtisaslarda özünü inkişaf etdirmək üçün hər cür şərait yaradılıb. Tələbələr yalnız nəzəri biliklər qazanmır, eyni zamanda müxtəlif proqramlar və layihələrdə iştirak edə bilirlər".



# "Özümüzü doğma evimizdə hiss edirik"

## Özbəkistanlı tələbə mübadilə proqramı çərçivəsində BMU-da təhsil alır

Abdurahman Khamidullayev BMU-da əcnəbi tələbələrə göstərilən diqqətdən də razılıqla danışır: "Xarici tələbə kimi biz burada olduqca rahatıq. Özümüzü həqiqətən qardaş ölkədə, doğma evimizdə hiss edirik. Azərbaycan ilə Özbəkistan mədəniyyəti və insanları arasında çox oxşarlıqlar var. Ənənələrimiz türk xalqlarını birləşdirir. Sizin insanlar çox mehriban, şən və qonaqpərvərdirlər".

BMU-nun əcnəbi tələbəsi universitetdəki gündəlik həyatını isə belə anladır: "Burada həyatım çox maraqlı keçir. Səhər dərslərə gedirəm. Tədris prosesində qazandığım bilikləri möhkəmləndirirəm. Sonra yataqxanaya qayıdıb nahar edirəm. Günün sonunda isə dostlarımla stolüstü tennis oynayır, oturub söhbət edir və ölkələrimiz haqqında danışırıq. Asudə vaxtlarımda Azərbaycanın tarixi məkanlarını, gözəl yerlərini gəzib görməyə çalışıram".

BMU-da təhsil almağı hər bir xarici ölkə vətəndaşına tövsiyə edən özbəkistanlı tələbə bildirir ki, burada təhsil almaq yeni həyata başlamaq üçün gözəl təcrübə və fürsətdir: "Müəllimlər dərsləri çox aydın izah edirlər, tələbələr isə mehribandır və bir-birlərinə yeni keçilən mövzuları öyrənməkdə kömək edirlər. Bütövlükdə isə Azərbaycan təhsil sistemini yüksək dəyərləndirirəm".

Abdurahmanın gələcəkdə magistratura təhsili almaq və s. hədəfləri var. İstəyir ki, BMU-nun magistratura proqramlarında təhsilinə davam etsin. Həmçinin Bakıdakı şirkətlərdə təcrübələrə başlamağı planlaşdırır. Ən böyük arzusu isə "Meta" şirkətində işləməkdir.


# Etibarsız sayılır

**Şəmkir Peşə Liseyi** tərəfindən 2013-cü ildə Qarayeva Əfsanə İlqar qızına verilmiş A-278223 nömrəli attestat və A-037948 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəmkir Orta Texniki Peşə Məktəbi** tərəfindən 1989-cu ildə Əliyev Fikrət Mahir oğluna verilmiş 103585 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Novruzov qardaşları adına 36 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş İsmayılova (Baxşəliyeva) Gözəl Elşad qızına verilmiş B-498697 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Qaymaqlı kənd tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Musayeva Həcər Əhməd qızına verilmiş B-103230 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 32 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş İsmayılov Ədin Məhəmməd oğluna verilmiş E-464155 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kənd Təsərrüfatı Akademiyası** tərəfindən 2004-cü ildə Bağırov Emil Gündüz oğluna verilmiş B-018710 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 2 nömrəli təbiət fənləri təmayüllü məktəb-liseyi 2012-ci ildə bitirmiş Hacaloğlu Sabirə-Nuray Ayxan qızına verilmiş A-136392 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 311 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Əlizadə Murad Zahir oğluna verilmiş E-679008 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** 7 nömrəli texniki və təbiət fənləri təmayüllü liseyi 2000-ci ildə bitirmiş Ələkbərova Əfsanə Əfqan qızına verilmiş 417064 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** Təbiət elmləri təmayüllü gimnaziyanı 2020-ci ildə bitirmiş Osmanlı Fidan Azər qızına verilmiş E-327087 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 171 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Hüseynova Ayla Elşən qızına verilmiş E-449508 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin** (keçmiş Dövlət Dəmir Yolu Liseyi) tərəfindən 2015-ci ildə Ağarzayev Eldəniz Şirağa oğluna verilmiş A-061037 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 56 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Məhərrəmova (Qurbanova) Sara Hüseynağa qızına verilmiş AN-861345 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə və 1994-cü ildə verilmiş AN-114972 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Ceyranbatan qəsəbə 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2025-ci ildə bitirmiş Həsənzadə Caməd Füzuli oğluna verilmiş E-781358 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 2 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Məmmədova Fatimə Arif qızına verilmiş E-622763 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2015-ci ildə Məmmədov Elməddin Nurəddin oğluna verilmiş A-062679 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Qapanlı kənd tam orta ümumtəhsil məktəbi 2018-ci ildə bitirmiş Səfərov Seyidəli Qamət oğluna verilmiş E-170644 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 17 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Rəhimli Fidan Samir qızına verilmiş E-343851 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Bəydili kənd tam orta məktəbi 2023-cü ildə bitirmiş Bağırov Raul Ziya oğluna verilmiş E-587963 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 11 nömrəli tam orta məktəbi 1979-cu ildə bitirmiş Məmmədquliyev Qurban Həsən oğluna verilmiş AU-233520 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 165 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Yusifli (Məmmədova) Namidə Qorxmaz qızına verilmiş B-604857 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 124 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Abdullayeva Aygün Elton qızına verilmiş A-713869 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qubadlı rayon** Qaralar kənd tam orta məktəbi 2022-ci ildə bitirmiş Əlizadə Mircamal Kamal oğluna verilmiş E-490132 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 186 nömrəli tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Həsənov İltifat Rəhbər oğluna verilmiş A-391397 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Yuxarı Sarıcalı kənd tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Rzayeva Birliyant Namaz qızına verilmiş A-134463 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Füzuli kənd ümumi orta ümumtəhsil məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Qurbanova Rüxsarə Elbrus qızına verilmiş A-232498 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Alıuşağı kənd tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Məhərrəmova (Abbasova) Mənsurə Adil qızına verilmiş A-287740 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Bığır kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1988-ci ildə bitirmiş Cavadov Şükran Bayram oğluna verilmiş AK-304060 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 27 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Əliyev Emil Samir oğluna verilmiş E-449188 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 1 nömrəli tam orta məktəbi 1984-cü ildə bitirmiş Rəhimova Təranə Əhməd qızına verilmiş A-924869 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Xocavənd kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1998-ci ildə bitirmiş Niyazova Pərvanə Elxan qızına verilmiş A-262482 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Mehrablı kənd 1 nömrəli tam orta məktəbi 1978-ci ildə bitirmiş Qarayeva Sara İslam qızına verilmiş A-811646 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Paşaoba kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2021-ci ildə bitirmiş İlyasov Kənan Lətif oğluna verilmiş C-556133 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** 6 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Əkbərov Fərahim Elxan oğluna verilmiş A-280752 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 17 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Quliyeva Nigar Məqsəd qızına verilmiş A-415663 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2017-ci ildə Hüseynova Günay Elcan qızına verilmiş A-116466 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 275 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Əliyeva Fatimə Fərid qızına verilmiş E-461092 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 208 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Abbasov Fikrət Polad oğluna verilmiş E-567342 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2019-cu ildə Tarıverdiyev Teymurbəy Telman oğluna verilmiş C-036150 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayon** Yarməmmədbağı kənd tam orta ümumtəhsil məktəbi 1993-cü ildə bitirmiş Bəylərov Nemət Adəm oğluna verilmiş A-040201 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 182 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Musayev Mayıl Ülvi oğluna verilmiş E-560985 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Aşıqalılar kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Babayeva Gülnarə Qubad qızına verilmiş B-048924 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 140 nömrəli tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş İsmayılova Şəbnəm Qoca qızına verilmiş A-052119 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 66 nömrəli tam orta məktəbi (indiki İ.Hacıyev adına "Tərəqqi" texniki-humanitar liseyi) 2004-cü ildə bitirmiş Raykova Tatyana Aleksandrovnaya verilmiş B-007415 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar şəhər** 1 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Məmmədli Nilufər Rövşən qızına verilmiş E-717127 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Univesiteti** tərəfindən 1992-ci ildə Əsədov (Əsədli) Qardaşxan İbrahim oğluna verilmiş ЦB-845756 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2018-ci ildə Müslümova Aygün İkram qızına verilmiş C-021594 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Ucar şəhər** 5 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş İbrahimova Afaq Mahir qızına verilmiş B-738815 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 153 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Rzayev Elqan Məhərrəməli oğluna verilmiş B-479462 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**10 nömrəli Bakı Qız Peşə məktəbi** tərəfindən 1999-cu ildə Həsənova İradə Mirsahib qızına verilmiş AB-016207 nömrəli diplom və attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Saray qəsəbə 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Baxşiyeva Ofelya Rafiq qızına verilmiş B-389425 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 150 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Mamedov Eyyub Nəsimi oğluna verilmiş E-468893 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 17 nömrəli tam orta ümumtəhsil məktəbi 2025-ci ildə bitirmiş Hacıbalayeva Günəş İlqar qızına verilmiş E-827620 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir Tibb Kolleci** tərəfindən 2018-ci ildə Cərullaqızı Günay Cərulla qızına verilmiş AA-112206 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı İslam Universiteti** tərəfindən 2008-ci ildə Kərimov Nəriman Süleyman oğluna verilmiş 1259 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2001-ci ildə Səfərov Rahid İbrahim oğluna verilmiş AB-I-078375 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 76 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Möhsümlü (Nəbili) Günel İsmət qızına verilmiş E-068693 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.